

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ *qapısı*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 144 (24.281)

*11 avqust 2023-cü il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev Rusiyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 10-da Rusiya Federasiyasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mixail Yevdokimovun etimadnaməsini qəbul edib.

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Söhbət zamanı Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli dostluq münasibətlərinin müxtəlif istiqamətlərdə uğurla inkişaf etdiyi bildirildi, siyasi, iqtisadi-ticari, energetika, nəqliyyat, humanitar sahələrdə, regional təhlükəsizliklə bağlı məsələlərdə fəal qarşılıqlı fəaliyyətin həyata keçirildiyi qeyd olundu.

Həm ikitərəfli müstəvidə, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlığın olduğu vurğulandı, dövlət başçıları arasında təmasların əlaqələrimizin genişlənməsinə verdiyi töhfə bildirildi, ikitərəfli münasibətlərimizin bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik ifadə olundu.

Görüşdə Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsi üzrə aparılan danışıqlar prosesinin hazırkı vəziyyəti barədə danışıldı.

Energetika və nəqliyyat sahələrində həyata keçirilən layihələrin, o cümlədən Şimal-Cənub nəqliyyat dəhlizinin regional inkişaf üçün əhəmiyyəti vurğulandı.

**AZƏRTAC**

## Fuad Nəcəfli Çinin Çunçin şəhərinin rəsmi nümayəndə heyətini qəbul edib





Avqustun 10-da Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Çin Xalq Respublikasının Çunçin şəhərinin Ümumçin Xalq Nümayəndələri Yığıncağının Daimi Komitəsinin sədr müavini Çuy Çyanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Səlahiyyətli nümayəndə qonaqları bu il 100 illik yubileyini qeyd etdiyimiz Ümummilli Lider Heydər Əliyevin doğma yurdu Naxçıvanda salamlamaqdan məmnunluğunu ifadə edib. Vurğulayıb ki, Ulu Öndərin müəyyənləşdirdiyi siyasi xətt bu gün Azərbaycanda Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

2022-ci ilin dekabrından Naxçıvanda fəaliyyətə başlayan yeni idarəetmə institutu, Səlahiyyətli Nümayəndəliyin fəaliyyəti barədə məlumat verən Fuad Nəcəfli bildirib ki, ötən dövrdə Naxçıvandakı mövcud vəziyyət araşdırılıb və ölkə Prezidentinin Sərəncamı ilə 5 illik sosial-iqtisadi inkişaf proqramı təsdiq



edilib. Proqramda kənd təsərrüfatı, energetika, yol infrastrukturu, xüsusi iqtisadi rejimə keçid kimi 11 prioritet istiqamət üzrə layihələr reallaşdırılacaq. Naxçıvan Muxtar Respublikasının, ümumilikdə, "yaşıl enerji" məkanına çevrilməsi ölkə Prezidentinin diqqətindədir. Bunun üçün Naxçıvanda 1500 meqavat gücündə "yaşıl enerji" potensialı mövcuddur.

Vurğulanıb ki, bu layihələrin reallaşdırılmasında Azərbaycanla Çin Xalq Respublikası arasındakı əlaqələr də önəm kəsb edir. Çin investorları Azərbaycana böyük maraq göstərirlər. Eyni zamanda Naxçıvanda fəaliyyət göstərən şirkətlər Çin şirkətləri ilə geniş əməkdaşlıq edirlər.

Görüşdə 2021-ci ildə Azərbaycanın həm siyasi, həm də iqtisadi baxımdan ən strateji bölgələrindən olan Naxçıvan Muxtar Respublikası ilə Çin Xalq Respublikasının ən iri sənaye bölgəsi olan Çunçin şəhəri arasında dostluq və əməkdaşlıq əlaqələrinin qurulmasına dair memorandumun imzalanması əlamətdar hadisə kimi qiymətləndirilib, əlaqələrin müxtəlif istiqamətlər üzrə genişləndirilməsi perspektivləri müzakirə edilib.

Görüşdə Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov və Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyası İdarə Heyətinin sədri Vüqar Abbasov da iştirak edib.

**"Şərq qapısı"**

## Quruculuq işləri rayonun görkəmini gözəlləşdirir



Muxtar respublikamızın ən böyük rayonu olan Şərurun mərkəzində və kəndlərinin aparılan tikinti-abadlıq işləri bölgənin görkəmini gözəlləşdirməklə yanaşı, əhalinin yaşayış şəraitini də yaxşılaşdırır. Rayon İcra Hakimiyyətindən aldığımız məlumata görə, rayon mərkəzində Heydər Əliyev prospektində zirzəmi ilə birlikdə 6 mərtəbədən ibarət olan 40 mənzilli yaşayış binasının təməli ötən il atılıb. Tikintisi "Arkoz" İnşaat Şirkəti tərəfindən aparılan binanın bütün mərtəbələrində qəlib beton və hörgü işləri başa çatdırılıb, binaya elektrik, su, kanalizasiya və istilik



xətləri çəkilib. Binanın içərisində alçı-suvaq işləri davam etdirilir, çardaq örtüyü vurulur, birinci mərtəbədən döşəmənin travertin üzlük daşı ilə üzlənməsinə başlanıb. Qeyd edək ki, adıçəkilən tikinti təşkilatı tərəfindən rayon mərkəzində yeni yaşayış binasının da tikintisinə başlamaq üçün hazırlıq işləri görülür.

Rayonda əhaliyə göstərilən nəqliyyat xidmətinin səviyyəsinin yüksəldilməsi üçün yeni avtovağzal binasının tikintisi də həmin təşkilatın inşaatçıları tərəfindən həyata keçirilir. Binanın tikinti-quraşdırma işləri yekunlaşdırılıb, həyətyanı sahədə abadlıq, asfalt örtüyü verilməsi və elektrik transformatorunun quraşdırılma işlərinə yaxın günlərdə başlanılacaq.

Rayonun kəndlərində də quruculuq işləri diqqət mərkəzindədir. Belə ki, Ələkli və Xələc kəndlərində sakinlər öz vəsaitləri hesabına məscid-mərasim evləri inşa edirlər.

✍ **Ramiyyə ƏKBƏROVA**

## Qeydiyyata alınmış vergiödəyicilərinin və yeni qeydiyyatdan keçmiş obyektlərin sayı artmaqdadır

2023-cü il avqust ayının 1-nə Naxçıvan Muxtar Respublikasında 3540 yeni vergiödəyicisi qeydiyyata alınıb. Bunların 89,4 faizi fiziki, 10,6 faizi hüquqi şəxslər və digər təşkilatlar olub. Ötən ilin eyni dövrü ilə müqayisədə qeydiyyata alınmış vergiödəyicilərinin sayı 2,2, o cümlədən fiziki şəxslərin sayı 2, hüquqi şəxslərin sayı isə 34 dəfə artıb. Yanvar-iyul aylarında kommersiya qurumlarının 60,5 faizi elektron qaydada, 39,5 faizi isə kağız daşıyıcıları vasitəsilə edilmiş müraciətlər əsasında uçota alınıb.

Naxçıvan Muxtar Respublikasında tətbiq edilən müasir vergi inzibatçılığının və şəffaflaşmanın nəticəsində 2023-cü ilin yanvar-iyul aylarında əvvəlki ilin eyni dövrü ilə müqayisədə yeni qeydiyyatdan keçmiş obyektlərin sayı 3,4 dəfə artaraq 1619-a çatıb. Ötən ilin eyni dövrünə nisbətən aktiv nəzarət-kassa aparatı olan vergiödəyicilərinin sayı 7,8 faiz, vergi daxilolmaları isə 3,4 dəfə və ya 2,2 milyon manat artıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

# Naxçıvan Şəhər İcra Hakimiyyətində Çuy Çyanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib




Avqustun 10-da Çin Xalq Respublikasının Çunçin şəhərinin Ümumçin Xalq Nümayəndələri Yığıncağının Daimi Komitəsinin sədr müavini Çuy Çyanın başçılıq etdiyi nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına səfər edib. Qonaqlar əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında ucaldılan abidəsini ziyarət edib, önünə gül dəstələri qoyublar. Sonra Heydər Əliyev Muzeyində olan ziyarətçilər dahi şəxsiyyətin həyatını və çoxşaxəli dövlətçilik fəaliyyətini əks etdirən eksponatlarla tanış olublar.

Səfər çərçivəsində Naxçıvan Şəhər İcra Hakimiyyətində Çin Xalq Respublikasından gələn nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov qonaqları salamlayıb, onların dəvəti qəbul edərək Naxçıvana səfərindən məmnun olduğunu bildirib. Qeyd olunub ki, bu gün Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin iştirakı ilə keçirilən görüşdə qarşılıqlı əlaqələrin inkişafına xidmət edən bir sıra məsələlər müzakirə edilib. Əminliklə demək olar ki, bu səfər əməkdaşlıq baxımından səmərəli, təəssürat cəhətdən yaddaqalan olacaq.

"Cahan Holdinq"in prezidenti, Naxçıvan Sahibkarlar Konfederasiyasının sədri Vüqar Abbasov bildirib ki, səfər zamanı keçirilən görüşdə əhəmiyyətli məsələlər müzakirə olundu. Buna görə də demək olar ki, əməkdaşlığımız yeni mərhələyə qədəm qoyur. Vurğulanıb ki, növbəti gün də əməkdaşlıqla bağlı məsələlər müzakirə ediləcək, təkliflər olacaq, konkret fikirlər əsasında Çunçin şəhərinə səfər təşkil ediləcək.

Çin Xalq Respublikasının Çunçin şəhərinin Ümumçin Xalq Nümayəndələri Yığıncağının Daimi Komitəsinin sədr müavini Çuy Çyan yüksək qonaqpərvərliyə və səmimi qarşılamaya görə təşəkkürünü bildirib. Qeyd edib ki, 2021-ci ildə Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Çin Xalq Respublikasının Çunçin şəhəri arasında dostluq və əməkdaşlıq əlaqələrinin qurulmasına dair imzalanan memorandumda qeyd olunan öhdəlikləri yerinə yetirmək üçün bu səfər təşkil edilib. Diqqətə çatdırılıb ki, görüşün məqsədi pandemiyadan sonra Çin Xalq Respublikası tərəfindən irəli sürülən layihənin icrasını həyata keçirməkdir. Naxçıvanla Çunçin şəhərinin iqlim şəraiti eynidir, hər iki regionun əhalisi istiqanlıdır. Nümayəndə heyəti burada qısa zaman keçirməsinə baxmayaraq, zəngin təəssüratlar əldə edib. "Cahan Holdinq"in prezidenti, Naxçıvan Sahibkarlar Konfederasiyasının sədri Vüqar Abbasovun başçılığı ilə nümayəndə heyətinin Çunçin şəhərinə səfər edəcəyindən böyük məmnunluğunu bildirən Çuy Çyan vurğulayıb ki, dostluq əlaqələri daha çox ünsiyyət, kommunikasiya tələb edir, beləliklə də, inkişaf, irəliləyiş əldə olunur.







Sonra Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov Naxçıvanın simvolu sayılan Haçadağı əks etdirən rəsm əsərini Çin Xalq Respublikasının Çunçin şəhərinin Ümumçin Xalq Nümayəndələri Yığıncağının Daimi Komitəsinin sədr müavini Çuy Çyana təqdim edib. Çuy Çyan isə Çunçin şəhərinin məşhur qırmızı qızıl çayını və şəhər haqqında zəngin məlumatları əks etdirən kitabçanı İcra Hakimiyyəti başçısına hədiyyə edib.

Qonaqlar Naxçıvan Şəhər İcra Hakimiyyətinin muzeyində Ulu Öndərin Azərbaycana birinci və ikinci rəhbərliyi, Naxçıvanda Ali Məclisin sədri işlədiyi dövrlərdə çəkilən fotolar, dahi şəxsiyyətin fərman, sərəncam və qərarları ilə tanış olublar. Vurğulanıb ki, Ümummilli Lider Heydər Əliyev Azərbaycan Respublikasının üçrəngli Dövlət Bayrağını ilk dəfə məhz bu binada qaldırıb.

Nümayəndə heyəti Heydər Əliyev Sarayında da olub, tədbirlər zalına baxıb. Naxçıvan Dövlət Rəsm Qalereyası, Miniatür Kitab Muzeyində sərgilənən eksponatlarla tanışlıq qonaqlarda zəngin təəssürat yaradıb. Çin Xalq Respublikasının Çunçin şəhərinin Ümumçin Xalq Nümayəndələri Yığıncağının Daimi Komitəsinin sədr müavini Çuy Çyan muzeydə Çin ədəbiyyatına aid kitabların da yer almasından təsirləndiyini bildirib, bu addımın, təbliğatın mədəni əlaqələrimizin inkişafına böyük töhfə verdiyini diqqətə çatdırıb. Sədr müavini Azərbaycanda Minatür Kitab Muzeyinin yaradılması üçün dəstəyini göstərən Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsinə ehtiramını ifadə edib, gələcəkdə Naxçıvan Dövlət Rəsm Qalereyasında Çin rəssamlarının əsərlərinin sərgilənməsi ilə bağlı səslənən təklifi yüksək qiymətləndirib, bunun üçün lazımi köməklik göstərəcəyini vurğulayıb.

**✍ Nail ƏSGƏROV**

# Dövlət İmtahan Mərkəzinin əməkdaşları tərəfindən keçilən təlimlər dünən yekunlaşıb



*Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin əməkdaşları tərəfindən 9-10 avqust 2023-cü il tarixlərdə Naxçıvan Muxtar Respublikasında yerləşən mərkəzi və yerli icra hakimiyyəti, məhkəmə orqanları və digər dövlət qurumlarında qulluq keçən dövlət qulluqçularına təlim keçilib.*

10 avqust tarixdə yerli icra hakimiyyəti və məhkəmə orqanlarının qulluqçuları üçün keçilən təlimdə Mərkəzin Vəzifələrin idarə edilməsi və ehtiyat kadrlarla iş sektorunun müdiri Rüfət Ağayev "Dövlət qulluğunda ehtiyat kadrların idarə edilməsi", Dövlət qulluğu siyasəti və dövlət strategiyası ilə iş sektorunun müdiri Elnur Abbasov "Dövlət qulluğu sahəsində təlimlər", Dövlət qulluqçularının reyestrinin aparılması və ehtiyat kadrların qeydiyyatı sektorunun müdiri Sakit Əliyev isə "Dövlət qulluqçularının Reyestrinin aparılması qaydaları" mövzularında təqdimatlar ediblər.

Təlimdə Mərkəzin əməkdaşları tərəfindən iştirakçılara inzibati vəzifələrin müsabiqə, ümumi və daxili müsahibə əsasında tutulması, namizədlərə dair tələblər, müvafiq vəzifələr üzrə qulluq funksiyalarının, vəzifənin tutulma şərtlərinin müəyyən edilməsi, müsahibə proqramlarının hazırlanması ilə bağlı tələblər, habelə "Dövlət Qulluqçularının Reyestri İnformasiya Sistemi", "Dövlət Qulluğu – Vəzifələrin İdarə edilməsi Sistemi" və "Dövlət Qulluğu – Ehtiyat Kadrların İdarə Edilməsi Sistemi"ndən istifadə, dövlət qulluğu vəzifələrinin tutulması məqsədilə müsahibənin təşkili və keçirilməsi qaydaları və digər məsələlər barədə məlumat verilib.

Təlimin sonunda dövlət qulluğuna dair qanunvericiliyin tətbiqi ilə bağlı müzakirələr aparılıb, iştirakçıların sualları cavablandırılıb.

Qeyd edək ki, təlimdə Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının 37, yerli icra hakimiyyəti və məhkəmə orqanlarının 23 nümayəndəsi olmaqla, ümumilikdə, 60 dövlət qulluqçusu iştirak edib.

Təlimdən sonra Mərkəzin ***Vəzifələrin idarə edilməsi və ehtiyat kadrlarla iş sektorunun müdiri Rüfət Ağayev*** "Şərq qapısı" qəzetinə müsahibə verib. Həmin müsahibəni oxuculara təqdim edirik:

– Bildiyimiz kimi, Naxçıvan Muxtar Respublikasında dövlət qulluğuna qəbul qaydalarının Dövlət İmtahan Mərkəzi tərəfindən həyata keçirilməsi prosesinə başlanılıb. Reallaşan təlimlərin əsas məqsədi görüləcək işlərin Naxçıvan Muxtar Respublikasında səmərəli həyata keçirilməsinin təşkili və bu sahədə mütəxəssisləri, dövlət qulluqçularını məlumatlandırmaqdan ibarətdir. Dövlət İmtahan Mərkəzi dövlət orqanlarının reyestrini Azərbaycan Respublikası Prezidentinin Administrasiyası ilə birgə aparır. Artıq Naxçıvan Muxtar Respublikasının dövlət orqanları da həmin reyestrə inteqrasiya olunacaq. Bununla yanaşı, bütün məlumatlar, ştatlar, dövlət rüsumları barədə qeydlər vahid bir mərkəzdə aparılacaq.



Qeyd edək ki, müəyyən olunmuş yeni qaydalara əsasən həm test imtahanlarının, həm də müsahibə mərhələsinin Naxçıvanda keçirilməsi nəzərdə tutulur. Test imtahanlarının qrafiki Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən müəyyən olunur. Müsahibə onlayn, test imtahanı isə iştirakçıların sayından asılı olaraq kağız və elektron qaydada həyata keçiriləcək. Bütün bu işlər Dövlət İmtahan Mərkəzinin Naxçıvan Regional Bölməsində təşkil olunacaq.

Ümumiyyətlə, dövlət qulluğu vəzifələrinin tutulması üsulu konkret olaraq müsahibə əsasında həyata keçirilir. Bəzi qurumlarda vəzifələr müsahibə ilə tutulanadək müddətli əmək müqaviləsi ilə təyin olunur. Ancaq istənilən halda təyinat müsahibə mərhələsi ilə olmalıdır. Vəzifə yaranırsa, 1 ay müddətində onun ya müsahibə, ya da daxili müsahibə ilə tutulması üçün qərar qəbul edilməlidir. Qərar qəbul edildikdən sonra müsahibə elanları verilir. Qeydiyyat müddəti, təxminən, 30 gün müəyyən olunur. Prosesin yekunlaşması isə 2-3 ay çəkə bilir.

Qeyd etmək yerinə düşər ki, əvvəllər Naxçıvanda təşkil olunan imtahanlarda iştirak edənlərə sertifikatlar vəzifə qeyd olunaraq təqdim edilirdi. Bildiyiniz kimi, sertifikat müvafiq qaydalara əsasən – altqruplara daxil olan inzibati vəzifələrə uyğun olaraq təqdim olunmalıdır. Yəni sertifikatda vəzifə qeyd edilmir. Vəzifənin daxil olduğu vəzifə qrupları var. Məsələn, B1 növü üzrə 7-ci təsnifat vəzifələri var ki, şəxsin nəticələrinə uyğun olaraq sertifikatda növ qeyd edilir. Baxmayaraq ki, əvvəllər Naxçıvanda fərqli formatda sertifikatlar verilsə də, imtahandan keçənlərin nəticələrinin nəzərə alınması ilə bağlı məsələlər müzakirə olunur. Bildiyiniz kimi, test imtahanından müvəffəqiyyətlə keçən şəxsə inzibati vəzifələrin təsnifat toplusuna uyğun şəkildə test imtahanından keçdiyini təsdiq edən sertifikat verilir. Sertifikatın qüvvədə olma müddəti 5 ildir. Əvvəllər Naxçıvanda tətbiq edilən qaydada imtahandan müvəffəqiyyətlə keçən şəxslərin sertifikatları qanun çərçivəsində nəzərə alınacaq. Çünki həmin şəxslər də, nəticədə, imtahandan müvəffəqiyyətlə keçiblər, onların da hüquqları müəyyən bir qaydada təmin olunmalıdır.

**✍ Gülcamal TAHİROVA**

# Müalicəxanada hərtərəfli şərait yaradılacaq



"Darıdağ Arsenli Su Müalicəxanası" Məhdud Məsuliyyətli Cəmiyyəti 2 avqust 2023-cü il tarixdən etibarən Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının balansındadır.

Qeyd edək ki, həmin müalicəxana Culfa şəhərindən 8-9 kilometr şimal-şərqdə, Darıdağın sıldırım yamacları arasında, dəniz səviyyəsindən 800-900 metr hündürlükdə yerləşir. "Darıdağ" suyu karbon qazlı, mərgümüşlü, yüksək minerallaşdırılmış xlorlu-hidrokarbonatlı-natriumludur: Kudova (Polşa), Dürkgeym (Almaniya), Sineqorsk (Saxalin) sularının analoqudur. Lakin suyun tərkibindəki mineral duzların mütənasibliyinə görə "Darıdağ" suyu onlardan üstündür. "Darıdağ" suyundan hələ qədim zamanlardan kustar şəkildə sümük-oynaq, əzələ sistemi xəstəliklərinin, o cümlədən "duzlaşma" adlanan patologiyalar və onun müxtəlif fəsadlarının müalicəsində geniş istifadə edilib. Hazırda burada arsenli su vannası vasitəsilə revmatik, dəri, əzələ və sinir sistemləri xəstəliklərinin ambulator müalicəsi aparılır. Bu mineral sudan istər soyuq, istərsə də isti şəkildə qəbul etmək orqanizm üçün zərərlidir.

Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Qəzənfər Abdullayev dünən müalicəxanadakı vəziyyətlə tanış olub. Uzun müddət baxımsız vəziyyətdə qalan müalicəxanada vətəndaşların müayinəsi, müalicəsi və istirahəti üçün hərtərəfli şəraitin yaradılması ilə bağlı müəyyən tapşırıqlar verib.

**✍ Ceyhun MƏMMƏDOV**

# Siyasi qətiyyətin təntənəsi

*Ölkəmizdə tarixi, əlamətdar və bayram günləri çoxdur və onların hər biri özünəməxsus əhəmiyyətə malikdir. Belə günlərin dövlət səviyyəsində qeyd olunması həm tariximizə, milli-mənəvi kimliyimizə böyük diqqət və ehtiramın ifadəsi, həm də bugünkü nəsildə həmin günlərə məhəbbət hissi aşılamaqdır.*

Bu günlərdə təqvimimizə yeni günlər əlavə edildi. Daha dəqiq desək, ölkə başçısı cənab İlham Əliyevin “Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında” 2023-cü il 31 iyul tarixli Sərəncamı 44 günlük müharibədən sonra çox sürətlə tikinti-quruculuq, təmir-bərpa işləri aparılan, yeni infrastruktur layihələri həyata keçirilən Qarabağımızın bu gününə böyük sevinc qatdı; bu həm də anti-Azərbaycan qüvvələrinə bir mesaj, Qarabağın, doğrudan da, tarixi Azərbaycan olmasının ifadəsi, 30 il yaşanmış acı həqiqətləri unutmamağa bir çağırışdır.

Sərəncamda oxuyuruq: ***“30 illik işğal dövründə Ermənistan tərəfindən şəhərlərimiz, kəndlərimiz, qəsəbələrimiz viran edilmiş, mədəni irsimizə böyük zərbə vurulmuş, tarixi-mədəni və dini abidələrimiz, məscidlərimiz dağıdılaraq vandalizmə məruz qalmışdır. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur hazırda yenidən qurulur, ərazilər minalardan təmizlənir, sürətlə genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır.***

***Məcburi köçkünlərin öz doğma yurdlarına dönüşü üçün Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın icrasına başlanılmışdır. Artıq Zəngilan rayonunun Ağalı kəndinə, Tərtər rayonunun Talış kəndinə və Laçın şəhərinə məcburi köçkünlərin qayıdışı təmin olunmuşdur və bu istiqamətdə işlər davam etdirilir”.***

Bir qədər geriyə qayıdaraq İkinci Qarabağ müharibəsi dövründə ölkə başçısının xarici ölkələrin kütləvi informasiya vasitələrinin nümayəndələrinə verdiyi müsahibələrin bəzi məqamlarına diqqət yetirək. Prezidentin yüksək tribunalardan Qarabağ probleminin həlli ilə bağlı göstərdiyi arqumentlərin leytmotivi bir idi: Biz işğalda olan torpaqlarımızın sülh yolu ilə alınmasını istəyirik. 30 ildir ki, bu istək az qala hər gün səsləndirilir. Ölkənin sadə vətəndaşından tutmuş ən yüksək vəzifəlisinə qədər hər bi azərbaycanlı bu yolu ən düzgün yol sayır. Çünki müharibə ölüm deməkdir, evlərin atasız, qardaşsız, anaların, bacıların gözüyaşlı qalması deməkdir. 1988-ci ildən üzübəri nə qədər evlərə qara tabutlar gətirilib? İkinci bir tərəfdən Azərbaycanın heç kimin torpağında gözü yoxdur. Lakin öz dədə-baba torpaqlarını da kiməsə bəxşiş verməmək üçün ərazi bütövlüyünü qorumaq qətiyyətindən, iradəsindən də məhrum deyil.

Bu fikri ölkə başçısı iyul ayının 22-də Şuşada “Euronews” televiziyasına verdiyi müsahibədə də qalib dövlətin Prezidenti kimi səsləndirdi: ***“…mənim Ermənistandakı ermənilərə mesajım belədir ki, biz onların dövləti ilə sülh istəyirik, bizim Ermənistana qarşı ərazi iddialarımız yoxdur, baxmayaraq ki, müharibədən əvvəl yüz minlərlə azərbaycanlı Ermənistanda yaşayıb və bütövlüklə etnik təmizləməyə məruz qalıb, onların mədəni və dini irsi tamamilə məhv edilib. Bununla belə bizim heç bir ərazi iddiamız yoxdur... İndi biz sülh istədiyimizi deyəndə, bu ona görə deyil ki, biz zəifik və sülh axtarırıq. Xeyr, onlar bilirlər ki, biz xeyli güclüyük. Bu ona görədir ki, biz tarixin bu qara səhifəsinin bağlanmasını istəyirik. Biz nə bu gün, nə də gələcəkdə başqa bir müharibə istəmirik”.***

Burada cənab İlham Əliyevin artıq aforizmə çevrilmiş bir qənaətini xatırlamamaq mümkün deyil: ***“Biz nəyi nə vaxt edəcəyimizi yaxşı bilirik”.***



Nəyi nə vaxt etmək. Ölkə başçısının adıçəkilən növbəti Sərəncamı nəyin nə vaxt edilməsinin postmüharibə dövründə yeni bir mərhələnin başlanğıcı hesab etmək olar.

Yenə də bir qədər geriyə ekskurs edək. 1988-ci ildə başlanan məlum hadisələrdən Aprel döyüşlərinə, Günnüt əməliyyatına qədər ermənilərin torpaqlarımızı zəbt etdikləri günlər tariximizin qara səhifələri kimi yaddaşlarımıza yazılıb. Bu günlər adi günlər deyil. Qəvi düşmən müstəqilliyimizin ilk günlərində ölkədə yaranmış xaos və anarxiyadan, başıboş rəhbərlərin şəxsi ambisiyalarından və havadarlarının köməyindən istifadə edərək bir vaxtlar Azərbaycan torpaqları hesabına Ermənistan dövləti yaratdıqları kimi ötən əsrin sonu, yaşadığımız əsrin əvvəllərində ikinci Ermənistan və ya “böyük Ermənistan” yaratmaq arzularını reallaşdırmaq istəyi ilə alışıb-yanırdı. Hayların fikrincə, artıq buna yaxınlaşırdılar.

Təbii ki, havadarlarının hərtərəfli dəstəyi hesabına. Ancaq burada bir atalar məsəlimiz yada düşür: “İt yatar qaya kölgəsində, elə bilər ki, öz kölgəsidir...”

Və səsimizin çatmadığı, ayaq basa bilmədiyimiz torpaqlarımızı düşmən tapdağından azad etdikdən sonra qədim yurd yerlərimizin nə günə salındığını görəndə düşünməli olursan: Sizə məxsus olmayan torpaqlarda yaradılmış infrastruktur mövcud Ermənistan ərazisindəki ən müasir yaşayış məntəqələrindən çox yüksək idi... Siz bu torpaqlarda yaşayacağınızı düşünürdünüzsə, nə üçün oraları vandalcasına dağıtdınız? Ölkə Prezidentinin sözlərini xatırlayıram: ***“Biz bütün şəhərləri bərpa edəcəyik. Ermənilər tərəfindən dağıdılmış bütün məscidlərimizi bərpa edəcəyik. Bu bölgələrə həyat qayıdacaq. Biz ermənilər tərəfindən bizim tarixi adlarımızı dəyişdirib tarixi saxtalaşdırmaq, eyni zamanda Azərbaycan xalqının tarixi-mədəni irsini silmək cəhdlərinə son qoyduq”.***

Və müharibədən ötən 1000 gün ərzində qədim və əzəli torpaqlarımıza minlərlə insan ayaq basıb; burada dağıdılmış evləri, məscidləri, sosial obyektləri də görüb, azad olunmuş ərazilərimizdə aparılan genişmiqyaslı quruculuq işlərini də. Bu gün dünya da yaxşı bilir ki, o torpaqlar elə-belə alınmadı. Ölümün gözünə dik baxan övladlarımızın hesabına alındı. Bu gün onları dərin ehtiramla yad edirik. Çünki onlar bu xalqın Vətəni öz canlarından artıq sevən övladlarıdır. Yüksək amallar uğrunda “uf” demədən özlərini ölümün ağuşuna atmağı, şəhidlik zirvəsinə yüksəlməyi bacarırlar. Ermənilər bunları bilmirdilərmi? Təbii ki, bilirdilər; ancaq nəyin nə vaxt ediləcəyinə inanmırdılar. Başları qarışmışdı qondarma “Dağlıq Qarabağ Respublikası”na “prezident” seçməyə, iqamətgahı Şuşaya köçürməyə. Paşinyan isə Şuşada, Cıdır düzündə sərxoş vəziyyətdə rəqs edirdi. ***“Bəs nooldu, Paşinyan?”***

49 ölkədən 150 xarici qonağın, o cümlədən dünyanın 34 ölkəsinin dövlət informasiya agentliyinin, 12 beynəlxalq təşkilat və media qurumunun, 60 yerli media rəhbəri və nümayəndəsinin iştirakı ilə iyulun 21-də açılış mərasimi olan, “Heydər Əliyev İli” çərçivəsində və Azərbaycan milli mətbuatının 148-ci ildönümü ilə bağlı “4-cü Sənaye İnqilabı dövründə Yeni Media” mövzusunda keçirilən Şuşa Qlobal Media Forumunda da bu barədə ətraflı danışıldı. Forum nümayəndələri Qarabağın bugünkü mənzərəsi, ölkə Prezidentinin bütün dünyanın gündəminə çevrilən məsələlərə, beynəlxalq hüquq normalarına obyektiv münasibətilə bir daha yaxından tanış oldular...

Bu gün Qarabağda normal həyat qurulmaqdadır. Hər bir azərbaycanlı gözlədiyi günü yaşayır, ancaq 30 ilin ağrılarını unutmur. Çünki xalqımızın başına gətirilənlər unutqanlığımızın ucbatından olub. Hamımız ilk olaraq avqust ayının 26-nı gözləyirik. Yəni daha bir nəyi nə vaxt edəcəyimiz zaman gəldi: Yaşanmış acı tariximizi xatırlamaqla həmin gün təqvimimizə yeni yazılmış Laçın şəhəri gününü təntənə ilə qeyd edəcəyik!!!

✍ **Muxtar MƏMMƏDOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

## Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyanın iclası keçirilib



*Dünən Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyanın iclası keçirilib.*

Komissiyanın və Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova 2023-cü ilin 6 ayı ərzində muxtar respublikada uşaq hüquqlarının təmin edilməsi vəziyyətinə dair hesabatla çıxış edib. Qeyd olunub ki, muxtar respublikada uşaq hüquqlarının qorunması ilə bağlı aidi təşkilatlar və komissiyalar tərəfindən bir sıra tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiya uşaqların hüquqlarının və qanuni mənafelərinin qorunması, davranışlarına nəzarət edilməsi, qanunazidd əməllərinin qarşısının alınması istiqamətində bir sıra tədbirlər görüb, monitorinqlər keçirib. Komissiyanın ekspert qrupu tərəfindən, ümumilikdə, 11 uşaq müəssisəsində, həmçinin Naxçıvan şəhəri, Şərur və Babək rayonu da daxil olmaqla valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş 19 uşağın yaşadığı ünvanlarda monitorinqlər təşkil edilib.

Bildirilib ki, hesabat dövrü ərzində muxtar respublikada uşaqların asudə vaxtlarının səmərəli keçirilməsi, dünyagörüşünün artırılması, intellektual səviyyəsinin yüksəldilməsi diqqətdə saxlanılıb, vətənpərvərlik və qəhrəmanlıq mövzularında 26 film nümayiş olunub, tarixi yerlərə və muzeylərə 18 ekskursiya təşkil edilib. Həmçinin ötən dövr ərzində 17 mədəni-kütləvi, eyni zamanda uşaq və yeniyetmələrin istedadlarının üzə çıxarılması, intellektual səviyyəsinin yüksəldilməsi istiqamətində, ümumilikdə, 306 tədbir keçirilib, sağlamlıq imkanları məhdud 16 uşağa evlərində səyyari kitabxana xidməti göstərilib. 21 sağlamlıq imkanları məhdud uşağın evində monitorinq keçirilib və 4 uşaq məktəbəqədər təhsil müəssisəsinə cəlb edilib.

Vurğulanıb ki, hesabat dövrü ərzində uşaq və yeniyetmələrin sağlamlığının qorunması məqsədilə muxtar respublikanın şəhər və rayonlarında 15 min 522 uşaq müayinə olunub, 9072 uşağa isə profilaktik peyvənd vurulub. 2023-cü ilin I yarım ili ərzində uşaq hüquqlarının həyata keçirilməsi ilə əlaqədar Qəyyumluq və Himayə komissiyalarına, ümumilikdə, 121 müraciət daxil olub. Valideyn himayəsindən məhrum 9 uşaq haqqında məlumatlar komitədə yaradılmış bazaya əlavə edilib. Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar keçirilən tədbirlərdə 103 uşaq komitə tərəfindən fəxri fərman və hədiyyələrlə təltif olunub.

Ramilə Seyidova qeyd edib ki, komissiyalar bundan sonra da üzərinə qoyulan vəzifələrin icrasını layiqincə həyata keçirməli, müvafiq sahə ilə bağlı ortaya çıxan nöqsan və çatışmazlıqların qısa zaman ərzində aradan qaldırılması istiqamətində fəaliyyətini gücləndirməli, öz işini günün tələbləri səviyyəsində qurmağa çalışmalıdır.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyinin, Ordubad Rayon İcra Hakimiyyəti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyanın, Culfa Rayon İcra Hakimiyyəti yanında Qəyyumluq və Himayə Komissiyasının, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyanın təhlil-hesabatları dinlənilib.

Sonda komissiyanın qərarı qəbul olunub.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

*Yeni nəşrlər*

## “Kəngərli rayonunun tarixi” kitabı dəyərli monoqrafik əsərdir




Məlum olduğu kimi, Kəngərli rayonunun ərazisində insanlar qədim dövrlərdən məskunlaşmışdır. XX əsrin 30-cu illərindən başlayaraq Kəngərli rayonunun Şahtaxtı kəndi ərazisində arxeoloji tədqiqatlar aparılmış, lakin bu bölgənin tarixi geniş şəkildə öyrənilməmişdir. XX əsrin sonlarında Azərbaycan Respublikasının müstəqillik əldə etməsi ölkəmizin hərtərəfli inkişafı üçün əlverişli şərait yaratmışdır. 2004-cü il tarixdə “Naxçıvan Muxtar Respublikasında Kəngərli rayonunun yaradılması haqqında” Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi bu bölgənin həyatında mühüm hadisə olmuşdur. Həmin vaxtdan başlayaraq muxtar respublikanın digər rayonlarında olduğu kimi, Kəngərli rayonunun da tarix və mədəniyyət abidələri geniş şəkildə öyrənilməyə başlanmışdır. Aparılan araşdırmalar Kəngərli rayonunda yeni abidələrin aşkar olunması ilə nəticələnmişdir. Bu abidələr Kəngərli rayonunun tarixini Daş dövründən başlayaraq izləməyə imkan vermişdir. Kəngərli rayonunda yerləşən Damlama, Qalacıq, Babatəpə, Yurdçu kurqanları, Şahtaxtı yaşayış yeri və nekropolu bölgənin qədim tarixinin öyrənilməsi üçün olduqca əhəmiyyətlidir.

Kəngərli rayonunun tarixini özündə əks etdirən qədim abidələr, sənədli materiallar “Naxçıvan abidələri ensiklopediyası”, “Qıvraq yaylasının arxeoloji abidələri”, “Naxçıvan tarixi” kimi ümumiləşdirici əsərlərdə əks olunsa da, rayonun tarixi tam şəkildə öyrənilməmiş, onun inkişafının ardıcıl mərhələləri müəyyənləşdirilməmişdir. Bu baxımdan Kəngərli rayonunun tarixinin öyrənilməsinə ehtiyac duyulmuşdur. Buna görə AMEA Naxçıvan Bölməsinin Rəyasət Heyəti Naxçıvanın rayonlarının tarixinin yazılması ən mühüm vəzifələrdən biri kimi qarşıya qoymuşdur. “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində nəfis tərtibatla nəşr olunan “Kəngərli rayonunun tarixi” kitabı məhz bu təşəbbüsün və gərgin elmi axtarışların nəticəsində ərsəyə gəlmişdir.

Kəngərli rayonundakı Şahtaxtı yaşayış yerinin tədqiqi şəhər mədəniyyətinin öyrənilməsi üçün olduqca əhəmiyyətlidir. Bu yaşayış yerindən Alt Paleolit dövrünə aid əmək alətləri tapılmışdır. Tədqiqatlar bu rayonda qədim dövlətçilik ənənələrinin eramızdan əvvəl III minilliyə dayandığını göstərir. Qədim Şahtaxtı şəhəri Naxçıvanın inkişaf etmiş mədəniyyət mərkəzlərindən biri olmuş, eramızdan əvvəl III-II minilliklərdə yadelli işğalçılara qarşı mübarizədə mühüm rol oynamışdır. Eramızdan əvvəl II-I minilliklərdə bu ərazidə məskunlaşan qədim tayfalar Etiunilərlə sıx ittifaq yaradaraq Assur və Urartu işğalçılarına qarşı mübarizə aparmış, ölkəmizin müstəqilliyini qorumuşlar.

Son illər aparılan araşdırmalar nəticəsində Kəngərli rayonunun arxeologiyası, etnoqrafiyası, qədim və orta əsr tarixi ilə bağlı xeyli yeni materiallar əldə edilmişdir ki, bunların da monoqrafik şəkildə ümumiləşdirilməsinə ehtiyac yaranmışdır. Yeni nəşrin hazırlanması prosesində tarixi qaynaqların araşdırılması Kəngərli rayonunun hun, xəzər, sabir, bolqar, peçeneq, oğuz, suvar, xurs və onlarla digər türkdilli tayfaların məskunlaşdığı əsas bölgələrdən biri olduğunu təsdiq etdi. Kəngərli rayonunun ərazisi orta əsrlərdə də Naxçıvanşahlıq, Böyük Səlcuq imperiyası, Elxanilər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər və Naxçıvan xanlığı kimi feodal dövlətlərin tərkibinə daxil olmuşdur. Azərbaycanın çar Rusiyası tərəfindən işğalından sonra Kəngərli torpaqları Naxçıvan qəzasının tərkibinə daxil olmuş, mülkədarların və rus imperializminin zülmünə qarşı mübarizə aparmışlar. Kəngərli torpağının qəhrəman igidləri XX əsrin əvvəllərində və sonlarında da düşmən hücumlarına əzmkarlıqla sinə gərmiş, torpaqlarımızı qorumuşlar. Kəngərli rayonunun yetirmələri Məhəmməd ağa Şahtaxtinski, Behbud bəy Şahtaxtinski, akademik Zərifə Əliyeva, Tamerlan Əliyev kimi ziyalılar yalnız Naxçıvanın deyil, bütövlükdə, Azərbaycanın ictimai-siyasi həyatında mühüm rol oynamışlar. Bütün bunlar haqqında elmi araşdırmalar və yeni faktlar haqqında bəhs etdiyimiz “Kəngərli rayonunun tarixi” adlı monoqrafik əsərdə öz dolğun əksini tapmışdır.

Ümid edirik ki, yeni nəşr ziyalılarımız üçün faydalı olacaq diyarşünaslıq tarixinə öz töhfəsini verməklə tarixsevərlərimizin maraqlı stolüstü kitabına çevriləcək.

**Vəli BAXŞƏLİYEV**
***AMEA-nın müxbir üzvü***

## “Milli hərb tariximizdə Cəmşid Naxçıvanski” mövzusunda tədbir keçirilib



Əlahiddə Ümumqoşun Ordu və Cəmşid Naxçıvanski Muzeyinin birgə təşkilatçılığı ilə Azərbaycanın görkəmli sərkərdəsi Cəmşid Naxçıvanskinin anadan olmasının 128-ci ildönümü ilə əlaqədar “Milli hərb tariximizdə Cəmşid Naxçıvanski” mövzusunda tədbir keçirilib. Tədbiri giriş sözü ilə muzeyin direktoru Abasət Nuriyev açaraq Azərbaycanın milli hərb tarixinə 6 general bəxş etmiş Kəngərlilər nəslinin sonuncu generalı, görkəmli sərkərdə Cəmşid Naxçıvanskinin həyat və fəaliyyətindən bəhs edib.

Tədbirdə Əlahiddə Ümumqoşun Ordunun zabiti, polkovnik-leytenant İntiqam Ağasıyev “Milli hərb tariximizdə Cəmşid Naxçıvanski”, Cəmşid Naxçıvanski Muzeyinin baş fond mühafizi-elmi işçisi, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Gülnaz Hüseynova “Naxçıvanskilər irsinin təbliğində Cəmşid Naxçıvanski Muzeyinin rolu” mövzularında çıxış ediblər.

Qeyd olunub ki, həyatının məqsədini Vətənə xidmətdə görən görkəmli sərkərdə Cəmşid Naxçıvanski hərb tariximizdə ilk atıcı diviziyanı yaradıb və ona komandanlıq edib. O, Birinci Dünya müharibəsi başa çatandan sonra tabeliyində olan hərbi hissə ilə birlikdə Azərbaycan Xalq Cümhuriyyətinin müdafiəsində iştirak edib, 1918-ci il sentyabrın 15-də Bakının erməni daşnaklardan və “Sentrokaspi diktaturası” qüvvələrindən təmizlənməsində fəallıq göstərib. 1920-ci ilin əvvəllərində Dağlıq Qarabağda azərbaycanlı əhaliyə amansız divan tutan erməni quldur dəstələri Cəmşid Naxçıvanskinin komandanlıq etdiyi alay tərəfindən darmadağın edilib və qısa müddətdə orada əmin-amanlıq yaradılıb.

Vurğulanıb ki, Azərbaycan xalqının digər görkəmli nümayəndələri kimi, repressiya qurbanı olan Cəmşid Naxçıvanski də əsl bəraətini Ulu Öndər Heydər Əliyevin ötən əsrin 70-ci illərində Azərbaycanda həyata keçirdiyi tarixi yaddaşa və ədalətə qayıdış siyasəti nəticəsində alıb. Xalqımızın Ümummilli Lideri Azərbaycanın rəhbəri seçiləndən qısa müddət sonra “Cəmşid Naxçıvanskinin xatirəsinin əbədiləşdirilməsi haqqında” qərar qəbul edib. Bundan sonra Cəmşid Naxçıvanski adına Respublika Hərbi Təyinatlı Orta İnternat Məktəbi, Naxçıvan şəhərində isə Cəmşid Naxçıvanskinin yaşadığı evdə adını daşıyan muzey yaradılıb, muzey binası təmir-bərpa olunub, bir məktəbə və küçəyə Cəmşid Naxçıvanskinin adı verilib. Hazırda Bakı şəhərində fəaliyyət göstərən hərbi lisey Cəmşid Naxçıvanskinin adını daşıyır.

Sonra tədbir iştirakçıları muzeyin ekspozisiyası ilə tanış olublar.

✍ **Nail ƏSGƏROV**

*Bir şəlalə var. Gözəlliyi göz oxşayır (fotolarda belə). Dağlar qoynundan axır, coşub-daşır, ruha dinclik, ürəyə sərinlik verir. Səsindən məhəbbət, sevgi, mənəvi paklıq və rahatlıq oxunur. Duruşu, əzəməti, nəcibliyi ilə görüşünə gələn hər kəsi cəzb edir. Qonaqpərvərdir, kiçiyə-böyüyə mehribanlıqla qucaq açır, gözəlliyinə tamaşa etməyə gələnləri xoş qarşılayır. Onun əhatəsində ancaq gülüş, sevinc, xoşbəxtlik nidaları eşidilir. Ondan ayrılmaq istəmirsən, yenidən görüşə can atırsan. Bu cənnətməkan dağlar əhatəsində yerləşən Pəzməri şəlaləsidir...*

**Turizm**

## Ordubadın gözoxşayan, ruha dinclik verən şəlaləsi

Yayda təbiətsevərlərin görüşünə gəldiyi şəlalə Ordubad rayonunun Pəzməri kəndi yaxınlığında yerləşir. Şəlaləni görmək istəyənlər Naxçıvandan uzun, təqribən, 1-2 saat arası yol qət etməlidirlər. Bu yol heç də cansıxıcı, yorucu gəlmir. Ona görə ki, yolun sonu o gözəlliyə – Pəzməri şəlaləsinə gedib çıxır. Dövlətin qayğısı ilə salınan və bərpa edilən rahat, abad yollarla irəlilədikcə yorulmursan, əksinə, dağların əsrarəngiz mənzərəsini, yamyaşıl bağları, çəmənlər arasında boy göstərən al-əlvan çiçəkləri, təsərrüfatçıların yay qayğılarını izlədikcə vaxtın necə gəlib keçdiyini belə hiss etmirsən. Dağ, təbiət mənzərələri insanı bir anlıq xəyallara aparır. Bu dağların dili yoxdur danışsın. Yayda da zirvəsindən qar əskik olmayan, müxtəlif rəng çalarlarını əks etdirən, özünəməxsus quruluşu ilə seçilən səngərli, qalalı dağlar. Naxçıvanın yenilməzliyinin, əyilməzliyinin, qüdrətinin vəsfidir bu dağlar. Bu yurda bəxş edilən təbiət gözəlliklərini seyr edə-edə bir də görürsən ki, Ordubad rayonunun naxçıvanlılar arasında kifayət qədər məşhur olan Dəstəbaşı deyilən yerinə çatmısan. Buradan artıq Vənənd-Anaqut-Dırnıs-Pəzmərinin buz kimi sərin, saf havası duyulur. Bir tərəfdə arıçılar pətəklərə qulluq edir, arılar çiçəklərdən və ağaclardan şirə çəkir, digər tərəfdə obalarına yol alan qoyun-quzunun mələşməsi eşidilir, təsərrüfatçıların əkdikləri kartof, kələm, lobya, qarğıdalı, günəbaxan, digər tərəfdə müxtəlif meyvə ağacları... Həqiqətən də, Ordubad rayonuna səfər edəndə elə bil cənnətə düşürsən. Buranı cənnətə çevirən isə onun qonaqpərvər, gülərüz, istiqanlı insanları və bayaqdan bəhs etdiyimiz təbii gözəllikləridir.

Qısa zaman ərzində kəndlərdə yaradılan turizm obyektləri istirahəti daha da mənalı edib. Vənənd və Anaqut kəndində istifadəyə verilən ailəvi istirahət mərkəzləri, restoranlar yerli əhalinin, eləcə də Naxçıvanımıza səyahət edən hər kəsin diqqətini çəkir. Burada insanlara milli mətbəximizin ləziz təamları təklif olunur, yerli istehsal məhsulları tanıdılır. Bir sözlə, Ordubadın dillər əzbəri limonu, sucuğu, cəviz mürəbbəsi, qayğanağı ilə çay içmək istəyənlər buyurub bu gözəl yerləri ziyarət edə bilərlər.

Digər tərəfdən, rayon mərkəzləri ilə yanaşı, ucqar kəndlərdə də yaradılan müasir şərait və yol infrastrukturu, yeni təhsil ocaqları kəndlərin simasına əlavə gözəllik verir. Dırnıs, Kələki, Unus, Pəzməri kəndlərinin təmiz havası, buz kimi suları, bulaqları, çayları Naxçıvanın yandırıcı istisini bir-iki günlük də olsa, sizə unutduracaq. Unusla Pəzməri arasında bir çox şəlalələr – Gərdəni, Ağyurd, elə adını kəndin adından götürən Pəzməri şəlaləsi bu yurdun gözoxşayan təbiət abidələridir. Unus kəndindən dağların arasından qıvrılan yollarla yuxarıya doğru qalxdıqca təbiət gözəlini görməyə tələsirsən. Şəlaləyə qalxmazdan əvvəl camaat arasında “Çimənək” deyilən yerdə dincəlirsən. Şəlaləyə gedən yol məhz elə buradan keçir. “Çimənək” adından da bəlli olduğu kimi, yamyaşıl ağaclar arasında yerləşir və şəlalədən axan gur su buradan da keçir. İnsanların rahat, mədəni istirahəti üçün burada hər cür şərait yaradılıb. Belə ki, uzaq yoldan gələnlər süfrə açır, samovar çayından içir, gətirdikləri nemətlərdən dadır, bir qədər dincəldikdən sonra şəlaləyə qalxırlar. “Çimənək piri” adlanan yerdə insanlar rahatlıqla ibadət edə, namaz qıla, nəzir-niyazlarını verə bilirlər.

Ətrafa nəzər salanda qartalların qıy vurduğu, kəkliklərin özünə yuva etdiyi hündür dağları, bu dağların başında görünüşü, əzəmətli duruşu ilə diqqəti cəlb edən Gəlinqaya abidəsini görürsən. Ana təbiətimizin əsəri olan bu abidə ilk baxışdan bir insan fiqruna bənzəyir. Muxtar respublikanın bir çox yerlərində Gəlinqaya abidələrinə rast gəlirsən. Bu abidə kədərli bir əfsanəni özündə ehtiva etməklə qadın ləyaqətinin, qadın ismətinin daşlaşmış formasıdır. Qədim türklərə məxsus daş kultu qız-daş, qızgəlin kimi abidələrin mərkəzində dayanır. Gəlinqaya əfsanəsi haqqında daha ətraflı məlumatı elə buradaca öyrənməyin isə bir başqa ecazkarlığı, sehri vardır.

Füsunkar Pəzməri şəlaləsi gərgin iş gününün yorğunluğunu unutmaq istəyənlərin – naxçıvanlıların, eləcə də digər bölgələrimizdən, xarici ölkələrdən gələn qonaqların axın etdiyi məkanlardan biridir. Ordubad rayonunun



Zəngəzur dağ silsiləsinin Ayıçınqılı aşırımından 3707 metr hündürlükdən başlayan eyniadlı çayın üzərində yerləşən şəlalə Pəzməri kəndindən 4-5 kilometr aralıdadır. Buraya iki yerdən, dağların zirvəsi və dərələrlə qalxmaqla sakit, bir o qədər də coşqun, şaqraq şəlaləni görmək olar. Şəlalənin yanına enmək əldə olmasa da, şəlalə ilə möhtəşəm görüşə çatdığında piyada gəldiyin yolu unudur, yalnız onun gözəlliyinə vurulursan.

Pəzməri şəlaləsinə gələnlər ondan bir az yuxarıda yerləşən, Pəzməri çayının qollarının birləşərək əmələ gətirdiyi Qaplançay şəlaləsini də görmək imkanı əldə edirlər. Pillovari görünüşü ilə diqqətçəkən şəlalənin bumbuz suyu ürəklərə sərinlik bəxş edir. Şəlalənin ətrafında yaradılan istirahət guşəsi səyahəti daha da maraqlı edir. Təbiətin füsunkar mənzərələrinin seyrinə dalan insanlar burada fotoşəkillər çəkdirir, çəmənlərdə bitən çiçəklərdən, dağlardakı kəklikotundan yığırlar. Gözəl təbiət mənzərələrinin seyrinə daldıqca düşünürsən ki, bu yerlər, həqiqətən də, Tanrının yaratdığı cənnətməkanlardır. Ona görə bu yerlərə bir gələn bir də gəlmək istəyir. Bu gözəlliklərdən doymasaq da, qəlbimizi bürüyən bu inam hissi ilə buradan ayrılırıq.

Ölkə başçısının müvafiq Sərəncamı ilə qəbul edilən “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda turizmin inkişafı prioritet sahələrdən biri kimi ön plana çəkilib. Proqramda müxtəlif turizm növlərinin inkişaf etdirilməsi, turizm infrastrukturunun yaxşılaşdırılması istiqamətində tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Əlbəttə ki, proqramdan irəli gələn vəzifələrin yerinə yetirilməsi, Zəngəzur dəhlizinin açılması turizmin daha da inkişafına şərait yaradacaq. Bu inkişafdan Ordubad rayonuna da böyük pay düşəcəkdir.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## Muxtar diyarda mədəniyyətimizin təbliği və inkişafı diqqətdə saxlanılır



*Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən iyul ayında müvafiq fərman və sərəncamlardan, qəbul edilmiş Dövlət proqramlarından irəli gələn vəzifələr icra edilmiş, ay ərzində müxtəlif mədəni-kütləvi tədbirlər keçirilmişdir.*

İyul ayında ölkəmizdə 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə bağlı Heydər Əliyev Muzeyi tərəfindən albom-kataloqun hazırlanması və Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən “Əl işləri sərgi-müsabiqəsi”nə ərizə qəbulu davam etdirilmişdir. Muxtar respublikada təşkil olunan “Uşaq İncəsənət Festivalı”nın II regional mərhələsində I mərhələdə 16 nominasiya üzrə uğur qazanmış 128 fərdi iştirakçı və 7 kollektiv iştirak etmişdir. Ötən ay “Heydər Əliyev İli” çərçivəsində intellektual oyun, solo konsert, kitab müzakirəsi daxil olmaqla, ümumilikdə, 13 tədbir keçirilmişdir.

Həmçinin iyul ayı muxtar respublikanın mədəni həyatında baş verən bir sıra yeniliklərlə yadda qalmışdır. Belə ki, Naxçıvan Dövlət Filarmoniyasının professional musiqi kollektivi kimi formalaşdığını, peşəkar musiqi sənətinin inkişafı yolunda xidmətlərini və uğurlu fəaliyyətini nəzərə alaraq Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2023-cü il 21 iyul tarixli Qərarı ilə filarmoniyaya “muxtar respublika” statusu verilmiş, bununla bağlı 21 iyul tarixdə təqdimat mərasimi keçirilmişdir. Bundan əlavə, Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrının kollektivi Türkiyədə qastrol səfərində olmuşdur. Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Səməd Canbaxşiyevin türkiyəli dramaturq Mehmet Ümit Görgülünün “Cibimizdeki cinnet” əsəri əsasında hazırladığı “Cibimizdəki dəlilik” psixoloji komediyası ilə qastrola çıxan kollektiv qardaş ölkənin Ege bölgəsində, Sardes, Foça və İzmir şəhərlərində tamaşanı teatrsevərlərə təqdim etmiş, kollektiv Sardesdə keçirilən VIII Beynəlxalq Dionis Teatr və Təlim Düşərgəsinə qatılmış, türkiyəli mütəxəssislər tərəfindən teatrla bağlı təşkil olunan təlimlərdə iştirak etmişlər. Mədəniyyət Nazirliyinin və “Mirvarid Dilbazi Poeziya Məclisi” İctimai Birliyinin təşkilatçılığı ilə birliyin sədri Güllü Alıyevanın “Vətən oğulsuz olmasın” kitabının Naxçıvanda keçirilən ilk təqdimatı da maraqla qarşılanmışdır.

İyul ayında Mədəniyyət Nazirliyinin sistemində fəaliyyət göstərən muzeylərdə və kitabxanalarda olan Qərbi Azərbaycanın mədəni irsini, tarixini və deportasiya prosesini əks etdirən rəsm əsərləri, kitab, məlumat və fotoşəkillərin siyahısı hazırlanmış, M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında və rayon (şəhər) MKS-lərdə Qərbi Azərbaycan mövzusuna həsr olunmuş “Qərbi Azərbaycan – tarixi torpaqlarımız” adlı sərgi təşkil edilmişdir. Mədəniyyət üzrə Elmi-Metodiki Mərkəzin əməkdaşları tərəfindən Kəngərli rayonunun Çalxanqala və Şahbuz rayonunun Ayrınc kəndlərində yaşayan Qərbi Azərbaycandan olan sakinlərdən tarixi torpaqlarımızın folkloru və toponimləri ilə bağlı nümunələr toplanaraq AMEA Naxçıvan Bölməsinə göndərilmişdir.

Naxçıvan Muxtar Respublikasının ərazisində arxeoloji qazıntıların aparılmasına nəzarət edilməsi məqsədilə 20 iyul tarixdə AMEA Naxçıvan Bölməsi, Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Maliyyə nazirliklərinin əməkdaşlarından təşkil olunmuş komissiya tərəfindən Naxçıvan şəhəri ərazisində olan Tumbultəpə yaşayış yerində və Babək rayonu ərazisində olan Meydantəpə yaşayış yerində aparılan arxeoloji qazıntı və kəşfiyyat işlərinə baxış keçirilmişdir.

Hesabat dövründə muzeylərin fəaliyyəti nəzarətdə saxlanılmış, muzeyləri 24 min 750 nəfər yerli, 20 min 486 nəfər əcnəbi olmaqla, ümumilikdə, 45 min 236 nəfər ziyarət etmiş, muzeylərə 7 yeni eksponat daxil olmuşdur.

İyul ayında kitabxanalarda yubileylər, əlamətdar və tarixi günlərlə bağlı tədbirlər, kitab müzakirələri keçirilmiş, sərgilər qurulmuş, sağlamlıq imkanı məhdud 25 uşağa səyyar kitabxana xidməti göstərilmişdir. Ay ərzində kitabxanalarda yeni oxucu sayı 1078, oxucu gəlişi 8 min 829, kitab verilişi isə 55 min 528 nüsxə olmuşdur. M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının Elektron kitabxanasında elektron kataloqda kitabların sayı 35 min 444-ə çatdırılmışdır.

Ötən ay Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblı Azərbaycan və Türkiyə prokurorlarının sərhədyanı əməkdaşlığı məqsədilə keçirilən tədbirdə yaddaqalan konsert proqramı ilə çıxış etmişdir.

İyul ayında klub müəssisələrinin, Naxçıvan Dövlət Film Fondunun fəaliyyəti diqqət mərkəzində saxlanılmış, nazirliyin *“nculture.gov.az”* internet saytının yenidən hazırlanması ilə bağlı iş aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Şərur rayonunun Kərimbəyli kənd sakini Həsənov Kamal Süleyman oğlunun adına olan JN-489A nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Zeynəddin kəndində yaşamış Hənifəyeva Sumayə Ələkbər qızının adına olan JN-231A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Məcid Əkbərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 477